

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 204 (23.115)

*25 oktyabr 2018-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Rəsmi xronika***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Prezident İlham Əliyev bildirib ki, ABŞ ATƏT-in Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının axtarılmasında mühüm rol oynayır. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı müvafiq qətnamələr qəbul edib. Bu qətnamələrə məhəl qoymayan Ermənistan isə status-kvonun saxlanılmasına və beləliklə, vəziyyətin dondurulmasına çalışır ki, bu da qəbuledilməzdir.

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton qəbula görə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlığın müxtəlif istiqamətləri ilə bağlı məsələlər müzakirə edilib, ölkələrimiz arasında gələcəkdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə əminlik ifadə olunub.

## Gənclərin VIII Forumu keçirilib







***Oktyabrın 24-də Naxçıvan Muxtar Respublikası Gənclərinin VIII Forumu keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan əzəmətli abidəsi önünə gül dəstələri qoyaraq xatirə fotosu çəkdirib və Heydər Əliyev Muzeyini ziyarət ediblər.***

Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən konfransı Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov açaraq bildirib ki, ümummilli lider Heydər Əliyev sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlayıb, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsinin vacib məsələ olduğunu bildirib. 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin I Forumu keçirilib. Bu forumda gənclər təşkilatlarının və gənclərimizin qarşısında mühüm vəzifələr qoyulub, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində ciddi tədbirlərin görülməsi aid dövlət orqanlarının əsas vəzifəsi kimi müəyyənləşdirilib.

Qeyd olunub ki, dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Gənclər muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edir. Bu gün muxtar respublikamızda gənclərin məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, onların hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının ifadəsidir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanları ilə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun yaradılması muxtar respublikada gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Hazırda muxtar respublika əhalisinin 140 min nəfərdən çoxunu 14-29 yaşda gənclər təşkil edir. Onların yüksək səviyyəli təhsillə təmin olunmaları məqsədilə 200-dən çox ümumtəhsil məktəbi, Heydər Əliyev adına Hərbi Lisey, 26 uşaq musiqi məktəbi əsaslı təmir edilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Azad Cabbarov bildirib ki, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması daim diqqətdə saxlanılır, bununla bağlı müxtəlif mövzularda tədbirlər keçirilir. Bu gün gənclərimizin bütün sahələrdə uğur qazanması onu göstərir ki, onlara dövlətimiz tərəfindən böyük diqqət və qayğı var. Nazir Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi, eyni zamanda İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar Naxçıvan şəhərində keçirilən bir sıra ölkə və beynəlxalq səviyyəli tədbirlərdə də gənclərin vətənpərvərlik tərbiyəsinin təbliğinin, onların yaradıcılıq potensiallarının üzə çıxarılması və intellektual səviyyələrinin yüksəldilməsinin diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

Qeyd olunub ki, son illər muxtar respublikada idmanın kütləviliyi də diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və sadətipli idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir ki, hazırda yaradılan şəraitdən və idman qurğularından istifadə edən gənc və yeniyetmələrin sayı 40 minə yaxındır. Bu ilin 9 ayı ərzində muxtar respublika idmançıları ölkə birinciliklərində 84, beynəlxalq turnirlərdə 83, dünya çempionatlarında 2, Avropa çempionatlarında 3 olmaqla, 172 medal qazanıblar. Bu gün gənclərin sosial şəbəkələrdə fəallığı da artıb. "Naxçıvan həqiqətləri", "Naxçıvan gəncləri", "Naxçıvan xəbərləri" və "Xaricdə təhsil alan naxçıvanlı gənclər" sosial şəbəkə qruplarında gənclər Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırır, muxtar respublikanın turizm potensialını tanıdırlar.

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov çıxışında bildirib ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi qeyd edilir. Ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili"nin elan olunduğu dövrdə Azərbaycan gənclərinin növbəti forumunun keçirilməsinin rəmzi mənası var. Təsadüfi deyil ki, forum "Cümhuriyyətin varisləri Azərbaycanın gələcəyidir" şüarı ilə keçirilir. Yaşadığımız dövrdə gənclərin təhsili, fiziki və mənəvi sağlamlığı, ictimai fəallığı, könüllülük fəaliyyəti, dil bilikləri, peşəsi, sosial-iqtisadi vəziyyəti insan kapitalını artıran amillərdəndir. Bunun üçün nazirlik və onun yerlərdəki idarələri gənclərin potensiallarının artırılması üçün çoxsaylı müxtəlif layihələr həyata keçirir. Gənclərlə işin müasir və daha faydalı formalarını axtarır. Bütövlükdə, bugünkü gənclər müstəqillik dövründə formalaşıb və həyat göstərir ki, Azərbaycan gəncləri düzgün tərbiyə edilir və onlar layiqli vətəndaşdırlar. Oktyabrda keçirilən bir sıra tədbirlərdə gənclərin müxtəlif problemləri, ölkənin inkişafında onların rolu, eləcə də Dayanıqlı İnkişaf Məqsədləri və "Strateji Yol Xəritələri"nin icrasında iştirakı geniş müzakirə edilir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi ərəfəsində təkcə rayon idarələri tərəfindən 450 tədbir keçirilib.

Diqqətə çatdırılıb ki, gənclərin hərbi-vətənpərvərlik ruhunun artırılması sahəsində bütün ölkəni əhatə edən, ən kütləvi layihə olan "Şahin" hərbi-idman oyunlarında Naxçıvan komandası hər il fəal iştirak edir. Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileylərinə həsr olunmuş "Hünər" XII Vətənpərvərlik Mahnıları Festivalının finalı Naxçıvanda keçirilib.

Konfransda Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevin, Naxçıvan Dövlət Universitetinin tələbəsi Fuad Babayevin, Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanovun, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimlinin, BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin rəsmisi Məzahir Əfəndiyevin, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərovun çıxışları dinlənilib.

Sonra Bakıda keçiriləcək Azərbaycan Gənclərinin VIII Forumunda iştirak edəcək nümayəndələr seçilib və konfransın qərarı oxunub.

Forumun rəsmi hissəsindən sonra Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış edib.

**"Şərq qapısı"**

## Attestasiyanın esse imtahanı mərhələsi olub

Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı 19 may 2018-ci il tarixdə keçirilən tədbirdə verilən tapşırıqların icrasının təmin edilməsi məqsədilə 24 oktyabr 2018-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən təkrar attestasiyaya cəlb olunmuş dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşlarının esse imtahanı mərhələsi keçirilib.

Test imtahanında uğur qazanan 5 nəfər bu mərhələdə iştirak edib. İmtahan başlanmazdan əvvəl iştirakçılar imtahan qaydaları haqqında məlumatlandırılıb, esse yazmaq üçün onlara 60 dəqiqə vaxt verilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb.

İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Naxçıvan Azərbaycanın Gənclər Paytaxtıdır" mövzusu təqdim edilib.

Müəyyən edilmiş meyarlar yazı işləri yoxlanılarkən nəzərə alınıb və iştirakçıların yaradıcılıq qabiliyyətləri qiymətləndirilib.

İmtahanın nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində (*www.dqmk.nmr.az*) yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Asiya İnkişaf Bankının nümayəndələri muxtar respublikadan xoş təəssüratlarla ayrılıblar

*Naxçıvan Muxtar Respublikasında səfərdə olan Asiya İnkişaf Bankının nümayəndələri oktyabrın 23-də muxtar respublikanın tarixi abidələri, müxtəlif profilli müəssisələri ilə tanış olublar.*

Naxçıvan Biznes Mərkəzində qonaqlara bildirilib ki, burada muxtar respublikanın istehsal və xidmət müəssisələri tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsində bu gün muxtar respublikada 382 növdə məhsul istehsal edilir. Onların 126 növü ərzaq, 256 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilib.





Asiya İnkişaf Bankının nümayəndələri Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinə baxıblar. Məlumat verilib ki, bu qurğu Naxçıvan şəhərində 90 minə yaxın əhalini və sənaye obyektlərini fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin etməyə imkan verir. Təmizləmə prosesində ozon və duzdan istifadə olunması suyun insan sağlamlığı üçün yararlılığına tam zəmanət verir. Burada tətbiq olunan nanosüzgəcli qurğu ənənəvi qum süzgəclərindən fərqli olaraq sudakı zərərli mikrobları tutub saxlayır. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlorla zərərsizləşdirilməsinə ehtiyac qalmır.

Təmizləyici Qurğular Kompleksində qonaqların diqqətinə çatdırılıb ki, bu qurğunun fəaliyyəti 121 min istifadəçini əhatə edir. Kompleksdə bioloji fosfor təmizləmə hovuzu, oksigensiz hovuz, havalandırma hovuzu, suvarma su hovuzu inşa edilib. Buradakı hovuzların tutumu 25 min 650 kubmetrdir.

Kompleksin yerləşdiyi sahə 2,62 hektardır ki, bunun da 2 hektarı tullantıların saxlanması və qurudulması sahəsinə aiddir. Burada bioreaktor və membrantipli təmizləyici qurğu quraşdırılıb. Çirkab sutəmizləyici qurğu 3 mərhələli təmizləmə sistemindən ibarətdir. Kompleksdə təmizləmə prosesi fiziki, bioloji və membran təmizləmə üsulları ilə aparılır. Təmizlənmiş su isə ozonla dezinfeksiya olunaraq suvarma hovuzuna verilir.

Səfər çərçivəsində Asiya İnkişaf Bankının nümayəndələri qədim diyarın bir sıra tarixi-mədəni abidələrini, mədəniyyət və səhiyyə ocaqlarını da ziyarət ediblər. Duzdağ Fizioterapiya Mərkəzinə gələn nümayəndələrə məlumat verilib ki, dağın altına doğru 300 metr uzanan mərkəzdə yüksək səviyyəli xidmət şəraiti yaradılıb. Son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri buraya gələrək müalicə alırlar.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq qonaqlarda böyük maraq yaradıb. Açıq səma altında nümayiş etdirilən daş abidələr haqqında onlara ətraflı məlumat verilib. Qeyd olunub ki, burada Naxçıvan Muxtar Respublikası ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi nümayiş olunur.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində qonaqlara eramızdan əvvəl V-VIII minilliklərə aid olan müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, qiymətli eksponatlar haqqında ətraflı məlumat verilib.

Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət edən nümayəndələrə bildirilib ki, təxminən, 7500 il bundan əvvəl baş vermiş ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin mindikləri gəmi ilk dəfə Naxçıvanda quruya çıxıb, onlar burada məskən salıblar. Zaman-zaman dağıntılara məruz qalan məzarüstü türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2006-cı il 28 iyun tarixli "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" Sərəncamına əsasən bərpa edilib.

Qonaqlar səfər təəssüratlarını bizimlə bölüşdülər.

***Vençay Janq – Asiya İnkişaf Bankının vitse-prezidenti:*** – Mən Azərbaycanın digər yerlərində olsam da, Naxçıvana ilk dəfədir ki, gəlirəm. Səfərim birgünlük, təəssüratlarım isə kifayət qədərdir. İlk olaraq burada çox qonaqpərvərliklə qarşılanmağım mənim üçün yaddaqalan oldu. Naxçıvan inkişaf edən bir diyardır. Buranın iqtisadiyyatı ilə tanışlıq nəticəsində beynəlxalq bank-kredit təşkilatları üçün daha cazibədar olduğunu gördüm. Görməli yerlər məndə Azərbaycanın bu qədim diyarı haqda gözlədiyimdən artıq təəssürat yaratdı. Hər yer çox gözəldir. Mənimlə gələn həmkarlarım da bu fikirdədirlər.



Asiya İnkişaf Bankı ilə Azərbaycan Hökuməti arasındakı əməkdaşlığa gəldikdə 2006-cı ildən biz "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsinə dəstək veririk. Layihənin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikası hökuməti və layihənin icra qrupu arasında çox sıx əməkdaşlıq olub. Nəticədə, bütün işlər nəzərdə tutulmuş vaxtda və ayrılmış büdcə çərçivəsində həyata keçirilib.

Ümumilikdə, bu layihə bizim üçün çox müsbət bir təcrübə oldu. Onun həyata keçirilməsində biz yerli icra orqanları ilə çox sıx əməkdaşlıq nümunəsi gördük. Onu deyə bilərəm ki, suyun təmizlənməsi üçün ən son nanotexnologiya tətbiq olundu. İnsan sağlamlığı üçün çox qabaqcıl üsulun tətbiqi layihənin digər buna bənzər layihələrdən üstünlüyünü göstərir. Buna görə də Asiya İnkişaf Bankı olaraq bu layihədən qazandığımız təcrübəni digər yerlərdə də tətbiq etməyə və daha çox insanı ekoloji təmiz su ilə təmin etməyə maraqlıyıq.

Göstərilən qonaqpərvərliyə və dəstəyə görə bir daha minnətdarlıq edirəm. Mən burada olarkən Azərbaycanda təmiz su ilə bağlı geniş yayılmış bir deyimi də eşitdim. Düşünürəm ki, bir-birinizə "Ömrünüz su kimi uzun olsun" deməklə ən xoş arzularınızı çatdırırsınız. Bu gözəl kəlam mənim də çox xoşuma gəldi və onu tədbir iştirakçılarına Azərbaycan dilində deməyə çalışdım. Təmiz suyun da burada yaşayan insanların həyatına rifah gətirəcəyinə inanıram.

***Nariman Mannapbekov – Asiya İnkişaf Bankının Azərbaycan nümayəndəliyinin rəhbəri:*** – Asiya İnkişaf Bankının vitse-prezidentinin Azərbaycana səfərinin məqsədi 2019-2023-cü illər üzrə Ölkə Tərəfdaşlığı Strategiyasının müzakirə edilməsidir. Hesab edirəm ki, 2014-2018-ci illəri əhatə edən əməkdaşlıq strategiyası uğurla nəticələnib. Biz artıq növbəti beşillik üzrə Ölkə Tərəfdaşlığı Strategiyasının hazırlanmasını, demək olar ki, başa çatdırmışıq. Gələn ilin əvvəlinə hökumətin dəstəyindən sonra biz bu sənədin Asiya İnkişaf Bankının Direktorlar Şurasının müzakirəsinə təqdim edəcəyik.



Biz hazırda Azərbaycanda bir neçə mümkün maliyyələşmə istiqamətləri üzrə işlər aparırıq. Bunlardan birincisi dövlət investisiya proqramlarına daxil ediləcək yüksəktexnologiyalı və innovasiyalı layihələrin seçilməsidir. İkinci istiqamət 2-3 il və daha çox müddətə kiçik və orta biznesin manatla maliyyələşdirilməsidir. Üçüncü istiqamət Dövlət Özəl Tərəfdaşlığının inkişafı, dördüncü istiqamət isə dövlət müəssisələrinin effektivliyinin artırılması üzrə əməkdaşlıqdır.

Naxçıvandan çox xoş və zəngin təəssüratlarla ayrılırıq. Doğrudan da fərqli təbiəti, tarixi qədimliyi ilə seçilən bir diyarda yaşayırsınız. İnsanların rifah halının yaxşılaşdırılmasına göstərilən qayğı isə hər addımda hiss olunur. Azərbaycanla əməkdaşlıq çərçivəsində muxtar respublika ilə də əlaqələrimizin daha da genişlənəcəyinə inanıram.

**Xəbərlər şöbəsi**

# Azərbaycan Respublikası gənclər və idman naziri: *"Naxçıvan gəncləri fəallıqları ilə seçilir"*



"Şərq qapısı" qəzetinə müsahibə verən Azərbaycan Respublikası gənclər və idman naziri Azad Rəhimov vurğulayıb ki, Naxçıvan gəncləri daim çox fəal olublar. Tədbirlər, o cümlədən müxtəlif layihələrlə bağlı həm Gənclər və İdman Nazirliyinə, həm də gənclər təşkilatlarına onlardan çox sayda təkliflər daxil olub, ideyalar irəli sürülüb.

"Məlum olduğu kimi, 3 ildən bir keçirilən ümumrespublika gənclər forumuna hazırlıq işləri görülür. Bununla əlaqədar oktyabrın 24-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında muxtar respublikanın 7 rayonunun, həmçinin Naxçıvan şəhərinin fəal gənclərinin iştirakı ilə tədbir keçirildi, Azərbaycan Gənclərinin VIII Forumuna nümayəndələr seçildi", – deyən Azad Rəhimov qeyd edib ki, forum Bakıda, "Kristal-holl"da keçiriləcəkdir. O vurğulayıb ki, Azərbaycan gənclərinin ən böyük, ən ali tədbirini fərqli bir formatda, fərqli bir şəkildə keçirmək niyyətindəyik.

Nazir diqqətə çatdırıb ki, Bakıda keçiriləcək gənclərin növbəti forumu həm də gənclər siyasəti, gənclərlə iş sahəsində görülən işlərin hesabatıdır. Belə ki, ölkəmizdə gənclərlə bağlı sosial, iqtisadi və digər məsələlərin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, qanunlar, dövlət proqramları qəbul edilib. Həmin sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib. Bakıda keçiriləcək forumda da Azərbaycan gəncliyinin inkişafına yönəlmiş dövlət proqramının icrası ilə bağlı hesabatlar dinləniləcək.

**Xəbərlər şöbəsi**

# Təlim-metodik toplantı



***Naxçıvan Qarnizonunda şəxsi heyətlə iş üzrə komandir müavinləri və hərbi psixoloqlarla təlim-metodik toplantı keçirilib.***

Tədbirdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev və Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Niyaməddin Tağıyev çıxış edərək bildiriblər ki, toplantının keçirilməsində əsas məqsəd qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır vəziyyətdə olmasını təmin edəcək mənəvi-psixoloji hazırlıq işinin daim diqqət mərkəzində saxlanılmasıdır.

Toplantıda çıxış edən müxtəlif kateqoriyalı zabit və mütəxəssislər tərbiyə işinin təşkilindən, fərdi xüsusiyyətlərin aşkarlanmasında və sistemləşdirilməsində psixoloji testlərin əhəmiyyəti, keçirilmə mexanizm və metodlardan danışıblar.

Bildirilib ki, bu işlərin təşkilində hərbi qulluqçuların kateqoriyalarına görə fərdi tərbiyə işinin xüsusiyyətlərinə ciddi diqqət yetirilməlidir. Buna görə də toplantıda əsas diqqət hərbi qulluqçuların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunmasına, hərbi kollektivlərdə sağlam rəqabət atmosferinin inkişaf etdirilməsinə, əsgər və zabitlərin şəxsi xüsusiyyətləri nəzərə alınmaqla fərdi tərbiyə işinin planlı şəkildə həyata keçirilməsinə yönəldilib.

**Nəriman NƏCƏFOV**

*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində idarə, müəssisə və təşkilatların nümayəndələrinin iştirakı ilə "http://vergi.nakhchivan.az rəsmi internet səhifəsi və elektron xidmətlər" mövzusunda keçirilən təqdimat tədbirini giriş sözü ilə Naxçıvan Muxtar Respublikası vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov açıb.*

# Rəsmi internet səhifəsi və elektron xidmətlər mövzusunda təqdimat keçirilib



Bildirilib ki, muxtar respublikamızda ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi üçün idxaldan asılılığın aradan qaldırılması istiqamətində görülən tədbirlər, iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə daxil olması və sosial infrastruktur təminatının yaxşılaşdırılması nəticəsində makroiqtisadi göstəricilərin artımına nail olunub, sahibkarlığa dövlət himayəsinin həyata keçirilməsi nəticəsində əlverişli biznes və investisiya mühiti yaradılıb.

Qeyd olunub ki, muxtar respublikamızda sahibkarlığa qanunsuz müdaxilələrin qarşısının alınması, operativ vergi nəzarəti tədbirlərinin və səyyar vergi yoxlamalarının sayının kəskin surətdə azaldılması sahibkarlığa dövlət dəstəyinin bariz nümunəsidir.

Vurğulanıb ki, vergi sistemində son dövrlərdə həyata keçirilən uğurlu tədbirlərdən biri də Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin yenilənməsidir. Həmin internet səhifəsinin köməyi ilə artıq sahibkarlar bir çox xidmətlərdən rahat şəkildə istifadə edə bilərlər. İnformasiya cəmiyyətinin inkişaf etdiyi bir mərhələdə, təbii ki, sahibkarlar üçün internet səhifəsi ən sürətli formada elektron xidmətlərdən yararlanmaq imkanı yaradır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergiödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərov "Vergi qanunvericiliyinin praktik tətbiqində internet resurslarının rolu", İnformasiya texnologiyaları və proqram təminatı bölməsinin rəisi Ülvi Qurbanov "Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsi və elektron xidmətlər", mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi Qəzənfər Bayramov "Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti və fəaliyyəti haqqında" mövzularında tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Sonra mövzu ilə bağlı suallar cavablandırılıb, iştirakçılara bukletlər paylanılıb.

**Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti**

## Hüseyn Cavidin anadan olmasının 136-cı ildönümünə həsr olunmuş tədbir keçirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş "Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən hər il oktyabrın 24-ü Naxçıvan Muxtar Respublikasında "Hüseyn Cavid Poeziya Günü" kimi qeyd edilir. Bu münasibətlə oktyabrın 24-də böyük sənətkarın Naxçıvan şəhərindəki ev-muzeyində tədbir keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə şair-dramaturqun və onun ailə üzvlərinin uyuduğu məqbərəni ziyarət etmiş, buraya gül qoymuşlar. Tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova böyük söz ustadının bəşəri ruhlu, həmişəyaşar yaradıcılığından, Cavid şəxsiyyətinə və irsinə dövlət qayğısından söhbət açıb.

Vurğulanıb ki, bu gün istər poeziyada, istərsə də dramaturgiyada orijinallığı ilə seçilən, Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən olan şair-dramaturq Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü formalaşdıran əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır.

Qeyd edilib ki, ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə vaxtilə milli ruhda yazılan, türkçülük ideologiyasını və islami dəyərləri təbliğ edən əsərlərə görə repressiya qurbanı olan Hüseyn Cavidin cənazəsinin 1982-ci ildə Uzaq Sibirdən Bakıya, noyabrın 2-də isə Naxçıvana gətirilməsi böyük cəsarət tələb edən nadir tarixi hadisə idi.

1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilmiş, Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində işləyən ümummilli lider yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış etmiş, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunmuşdur. Bakıda Hüseyn Cavidin abidəsi ucaldılmış, 125, 130 və 135 illik yubileyləri geniş şəkildə qeyd edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yubileylərlə bağlı 2007-ci il 15 may və 2012-ci il 20 fevral tarixli sərəncamlarla təsdiq etdiyi Tədbirlər planlarına əsasən qədim diyarımızda yubiley tədbirləri yüksək səviyyədə təşkil olunmuşdur.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyevin "Hüseyn Cavidin həyat və yaradıcılığı", Naxçıvan Dövlət Universitetinin müəllimi, professor, filologiya elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Hüseyn Həşimlinin "Hüseyn Cavidə həsr olunmuş əsərlər", filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun "Böyük ideallar şairi" mövzularında çıxışları olub.

Tədbirdə şairin yaradıcılığından nümunələr bədii qiraət edilib.

Sonda tədbir iştirakçıları Hüseyn Cavidin ev-muzeyinin ekspozisiyası ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Görkəmli alimin 90 illik yubileyi qeyd edilib

*Naxçıvan Dövlət Universitetində görkəmli alim, Əməkdar elm və texnika xadimi, Dövlət mükafatı laureatı, akademik Azad Mirzəcanzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunan elmi-praktik konfrans keçirilib.*



Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Akademik Azad Mirzəcanzadənin 90 illik yubileyi haqqında" 2018-ci il 6 iyul tarixli Sərəncamının əhəmiyyətindən bəhs edib. Görkəmli alimin 500-ə yaxın elmi məqalənin, 100-ə yaxın monoqrafiya, dərslik, dərs vəsaitinin, 50-dən çox ixtira və patentin müəllifi olduğu vurğulanıb. Rektor Prezident cənab İlham Əliyevin 2007-ci il iyulun 4-də "Azad Mirzəcanzadənin xatirəsinin əbədiləşdirilməsi haqqında" və alimin yubileyi ilə bağlı imzaladığı sərəncamları Azərbaycan elmində xüsusi xidməti olan Azad Mirzəcanzadənin əməyinə verilən yüksək qiymət və qayğının təzahürü kimi dəyərləndirib.

"Vətənpərvər və novator alim" mövzusunda məruzə ilə çıxış edən Ümumi riyaziyyat kafedrasının müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor Məhəmməd Hacıyev bildirib ki, alim neft-qaz mexanikası sahəsində bütöv bir elmi istiqamət yaradıb. Həmçinin neft-qaz yataqlarının dinamik analizi ilə bağlı sanballı elmi məqalələr, kitab və monoqrafiyalar hazırlayıb.

Vurğulanıb ki, Azad Mirzəcanzadənin rəhbərliyi altında 300-dən çox elmlər namizədi, 120 elmlər doktoru hazırlanıb və bu gün onun yetirmələri Azərbaycanla yanaşı, Rusiya, ABŞ, Vyetnam, Almaniya və digər xarici ölkələrdə yüksəkixtisaslı kadrlar kimi fəaliyyət göstərirlər.

Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi, Prezident təqaüdçüsü Bətulə Əlizadə "Əfsanəvi akademik Azad Mirzəcanzadə" adlı çıxışında bildirib ki, son dərəcə geniş maraq dairəsi olan Azad Mirzəcanzadə pedaqoji fəaliyyətlə də məşğul olub, yüksəkixtisaslı kadrların hazırlanmasına böyük qüvvə sərf edib, ölkə iqtisadiyyatının inkişafı üçün güclü elmi potensialın yaradılmasında yaxından iştirak edib.

Ümumi nəzəri və fizika kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Fərman Qocayev akademiklə bağlı xatirələrini bölüşüb. Sonda görkəmli alimin həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub.

**Səadət ƏLİYEVA**

## "Məntiq test toplusu" kitabının təqdimat mərasimi olub

***"Naxçıvan" Universitetində ali təhsil ocağının İqtisadiyyat fakültəsinin müəllimi Zahid Qənbərovun "Məntiq test toplusu" kitabının təqdimat mərasimi olub.***

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, Zahid Qənbərov artıq 2 test kitabının, 2 test bankının və 1 dərs vəsaitinin müəllifidir. Bu nəşrlər oxucu kütləsi arasında çox geniş yayılmaqdadır. Bu günlərdə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən "Məntiq test toplusu" adlı kitab elmin müvafiq sahəsi üzrə biliklərin daha sistemli şəkildə mənimsənilməsinə xidmət edəcək aktual nəşrdir.

Universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu qeyd edib ki, dərs vəsaiti magistraturaya və dövlət qulluğuna qəbul imtahanları proqramı əsasında hazırlanıb. Verilmiş testlərdən istifadə etməklə tələbələr təməl məntiqi düşünmə biliklərini möhkəmləndirməklə yanaşı, öyrənmənin yeni forma və metodlarına da yiyələnəcəklər. Test vəsaitindən ali məktəb tələbələri, dövlət qulluğuna hazırlaşanlar, müəllimlər və məntiq elminə maraq göstərən bütün şəxslər istifadə edə bilərlər.



Sonra İqtisadiyyat kafedrasının müdiri, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent Dilsuz Qasımovun, həmin kafedranın müəllimi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elşad Ağayevin, "Naxçıvan" Universiteti kitabxanasının əməkdaşı, magistrant Aygün Kürdovanın və universitetin Tələbə-Gənclər Təşkilatının sədri, İqtisadiyyat ixtisasının IV kurs tələbəsi Sənan Əhmədovun çıxışları dinlənilib.

Sonda müəllif tədbirin təşkilatçılarına minnətdarlıq edib.

**Nuray ƏSGƏROVA**

***Turizm hər bir ölkə üçün iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən biri sayılır. Çünki turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə tərəqqi edən iqtisadi sektora çevrilib. Həmin sektorun davamlı olaraq genişlənməsi bu sahəni sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir.***

## Yeni qurum muxtar respublika turizminə öz töhfəsini verəcək

Son illərdə Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilir, müasir turizm infrastrukturunun yaradılması istiqamətində uğurlu addımlar atılır. Bu il muxtar respublikamızda turizm işinin təkmilləşdirilməsi, həmin sahənin gələcək perspektivlərinin müəyyənləşdirilməsi üçün qəbul edilən hüquqi sənədlər isə turizm quruculuğu istiqamətində görüləcək işlərin ümumi məzmununu özündə əks etdirir.

Məlum olduğu kimi, bu ilin aprel ayında muxtar respublikada mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti yaradılıb. Ali Məclis Sədrinin 2018-ci il 9 oktyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti haqqında Əsasnamə" təsdiq olunub. Əsasnamədə departamentin hüquq və vəzifələri ilə yanaşı, fəaliyyət istiqamətləri də öz əksini tapıb.

Qeyd edək ki, Turizm Departamentinin yaradılması muxtar respublikada turizm sahəsində görüləcək işlərə yeni yanaşmanı ortaya qoyur. Məsələn, əvvəllər turizmlə bağlı görülən işlər mədəni sahədə həyata keçirilən tədbirlərin bir hissəsini təşkil edirdisə, bu gün artıq turizm sektorunun inkişafını həyata keçirən müstəqil bir qurum – Turizm Departamenti var. Departamentin Əsasnaməsinə nəzər salsaq, görərik ki, qurumun fəaliyyətində əsas istiqamət turizm sahəsində müvafiq dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etməkdir.

Bu yazıda məqsədimiz həmin əsasnamənin mühüm istiqamətlərini izah etmək, turizmin inkişafında müəyyən edilmiş hədəflərin mahiyyətini oxucularımıza çatdırmaqdır. İlk olaraq onu qeyd edək ki, Turizm Departamenti muxtar respublikada daxili və gəlmə turizmin inkişafı üçün məqsədli proqramların hazırlanmasında, turizm zonaların və turizm xidməti sahələrinin yaradılmasına investisiyaların yönəldilməsində birbaşa iştirak edəcək. Məqsəd muxtar respublikanı beynəlxalq səviyyədə turizm mərkəzinə çevirməkdir. Təbii ki, bu istiqamətdə görüləcək işlərdə Naxçıvanın turizm brendinin yaradılması da ön planda durur. Hamımıza məlumdur ki, turizm, eyni zamanda bir bazardır və bu bazarın öz istehlakçıları var. Müasir turizmdə hansı trendlər işləkdir və yaxud müasir turizm infrastrukturu hansı yenilikləri özündə birləşdirir. Əlbəttə, bu işlərin görülməsi üçün xarici turizm bazarlarının öyrənilməsi, turistlərin cəlbi üçün təbliğat-təşviqat işlərinin aparılması bu sahənin işlək mexanizm üzərində qurulmasında şərtdir. Buna görə də yeni yaradılan qurumun bazar araşdırmalarına başlaması və bunun da nəticəsi olaraq turizm infrastrukturunun təkmilləşdirilməsinə öz töhfəsini verəcəyi şübhəsizdir.

Əsasnamədə yer alan maraqlı və vacib məqamlardan biri də Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarının marketinq və kommunikasiya planlarını hazırlamaq və icrasını təmin etməkdir. Bu, həllivacib məsələdir. Birinci ona görə ki, bir bölgədə turizmin inkişaf etdirilməsi həmin bölgənin marketinq tələblərinin üzərində qurulur. Digər tərəfdən, bu amil turistlərin hansı bölgələrə yönləndirilməsində turizmçilərin köməyinə gəlir. Düşünürük ki, muxtar respublikamızın bölgələr üzrə mövcud turizm potensialının düzgün qiymətləndirilməsi və bu sahədə müəyyən addımların atılması diyarımızda ixtisaslaşmış turizm bölgələrini müəyyənləşdirməyə imkan verəcək.

Əsasnamədə sağlamlıq, idman, dağ və qış turizmi, mədəni, ekstremal, işgüzar, ekoloji turizm, çimərlik və digər turizm növlərinin inkişafını təmin etmək departamentin vəzifəsi kimi müəyyən olunub. Təbii ki, bu turizm növlərinin inkişafı son hədd deyil. Gələcəkdə yaranacaq yeni ehtiyacların ödənilməsi bazara və mövcud qaydalara uyğun olaraq öyrəniləcək və təmin olunacaq. Əsas məsələ ondadır ki, mövcud potensialdan hərtərəfli istifadə edilsin. Məsələn, Naxçıvan Muxtar Respublikasının coğrafi ərazisinin böyük bir hissəsi dağlıq zonalardır. İndiyədək bu ərazilərə biz, sadəcə, təbiət mənzərələri kimi baxmışıq, hətta çoxumuz relyefin bizə təqdim etdiyi bu cür çılpaq dağ, təpə və yarğanları "çox kasıb" adlandırmışıq. Ancaq bu gün turizm dünyada elə bir səviyyəyə gəlib çatıb ki, maraq dairəsindən kənarda qalan heç bir məraqsız obyekt yoxdur. Çoxumuz bilmirik ki, bu gün dünyada Alp, Himalay, Tyan-Şan, Apenin dağlarını ələk-vələk etmiş uzun patika qaçışçıları və yaxud ultra-marafonçular, dağ velosipedçiləri, dağçılıq üzrə ixtisaslaşmış fotoqrafçılar, reklam və kino sənayesinin peşəkarları daim kəşf olunmamış maraqlı, necə deyərlər, mövzu verə bilən dağlıq bölgə axtarışındadırlar. Yəni bir obyekt üzərində görün nə qədər sahənin peşəkarlarının maraqları uzlaşır. Turizmin vəzifəsi isə bu maraqları vaxtında dəyərləndirməkdir. Ümid edirik ki, Naxçıvanın bu və ya digər potensialından yaxın gələcəkdə yararlana biləcəyik.

Ümumilikdə, onu qeyd edək ki, yeni yaradılmış qurum yerli turizmin potensialından düzgün istifadəyə və turizmin inkişafına yeni baxışın formalaşmasına öz töhfəsini verəcək.

**Səbuhi HƏSƏNOV**

## Dispanserizasiya xidmətinə dair konfrans

Oktyabrın 24-də Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında "Dispanserizasiya xidməti: problemlər və qarşıda duran vəzifələr" mövzusunda konfrans keçirilib.

Tədbiri xəstəxananın baş həkimi Rəhim Rəhimov açaraq bildirib ki, əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir. Bu il oktyabrın 9-da Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında imzaladığı Sərəncam da uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə onların arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılması məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi xidmətin təşkili şöbəsinin baş məsləhətçi-pediatrı İbrahim Ağayev qeyd edib ki, məktəbyaşlı uşaqlar arasında mütəmadi olaraq həyata keçirilən dispanserizasiya tədbirləri, o cümlədən kütləvi tibbi müayinələr nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə nəzərəçarpan müsbət dinamika müşahidə olunur.

Sonra Mərkəzi Uşaq Xəstəxanası baş həkiminin müavini İlkay Əliyevanın, həkimlərdən Aytən Rzayevanın, Leyla Rəsulovanın məruzələri dinlənilib.

Məruzələr videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# 50 il mətbu sözün keşiyində
## (oçerk)



Eşidəndə ki, oktyabr ayında yaxın dostum və həmkarım Elman Məmmədovun Şərur rayon qəzetində fasiləsiz olaraq çalışmasının 50 ili tamam olur, düzü, inanmağım gəlmədi. Bunun dəqiq olduğunu öyrəndikdən sonra ona telefon açıb dostumu təbrik etdim. Elman haqqında da bir yazı hazırlamaq keçdi fikrimdən...

Xatirələr məni bir qədər yaxın keçmişə apardı. Mətbuata gəldiyim ilk günlər yadıma düşdü. O günlərdə mərhum Səxavət Kəngərli, Nurəddin Babayev, Cəfər Əliyev, Maqsud Mahmudov kimi ölkə mətbuatında özlərini təsdiq etdirmiş, yüksək dövlət mükafatlarına layiq görülmüş jurnalistlər qarşıma çıxıblar. Çətin anlarda mənə kömək olublar. Sonralar yaxınlığımız, dostluğumuz başlayıb.

...Bu məqamı təsadüfən xatırlamadım. Mən mətbuata gələndə "Şərurun səsi" qəzetinin redaktoru Elman Məmmədov jurnalistlərin orta nəsil nümayəndəsi idi. Bu illərdə Elmanın şahidi olduğum ömür yolunu gözlərim önündə canlandırdım, xarakter cizgilərini yadıma salmağa çalışdım. Zahirən çox sakit görünən Elman Məmmədovun daxilən işıqlı, istiqanlı, naxçıvanlıların təbirincə desək, ifallı bir insan olduğunu onu tanıyanların hamısı təsdiq edər. Onu sevdirən də bu keyfiyyətlər və yazılarındakı səmimiyyətdir.

Elman Məmmədov Şərur rayonunun Düdəngə kəndində sadə bir ailədə dünyaya göz açıb. Uşaqlıq illəri o vaxtlara təsadüf edib ki, xalqımız 1941-1945-ci illər müharibəsinin iqtisadiyyatımıza, sosial həyatımıza vurduğu yaraları sağaltmaqda, ictimai təsərrüfatlar təzə-təzə özünə gəlməkdə idi. O illərdə məktəbyaşlı uşaqlar da dərsdən sonra təsərrüfat işlərində valideynlərinə kömək edirdilər. Elman da onlar sırasında... İllər ötdü, o da orta təhsilini başa vurdu. Tay-tuşlarının hərəsi bir peşə məktəbinə, texnikuma, yaxud da ali məktəbə üz tutdu. Elman isə bunlardan imtina etdi. Səbəbini sonralar bildilər: arzusu jurnalist olmaq imiş.

Öz sözü: – O vaxtlar belə idi ki, Jurnalistika fakültəsində imtahanlara buraxılmaq üçün istehsalatda ən azı ikiillik iş stajın olmalı, mətbuatda 5-6 yazın çap edilməli və redaksiyadan xasiyyətnamə-zəmanət almalı idin ki, imtahan götürənlər "səndən jurnalist ola bilər" qənaətinə gəlsinlər. Bunlar olmadığına görə o vaxtacan sənədlərimi Jurnalistika fakültəsinə verə bilməmişdim. Nəhayət, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinin qiyabi şöbəsinə qəbul oldum. Buna məndən daha çox sevinənlər isə nə vaxtsa bu fikrimdən daşındırmağa çalışan atamla anam, bir də seçdiyim və qəlbən bağlandığım sənət yolunda mənə ilk müəllimlik etmiş Çingiz Nağıyev oldu.

*Haşiyə:* Çingiz Nağıyev özünəməxsus üslubu və dəst-xətti ilə seçilən, gənc qələm sahiblərinə dayaq durmağı həyat amalına çevirmiş bir jurnalist olub. Elman Məmmədovu da redaksiyaya işə o aparıb, Elman müəllim ilk əmək fəaliyyətinə Şərur rayonunda dərc olunan "İşıqlı yol" qəzetinin mətbəəsində texniki işçi kimi başlayıb. İlk yazılarını da Elman o vaxtlar yazıb və Çingiz Nağıyev də ondan köməyini əsirgəməyib.

...Qiyabi təhsil ala-ala rayon qəzetində müxtəlif vəzifələr tutub; ən kiçik vəzifədən başlayaraq redaktor kürsüsünə gəlib çatıb. Düz 26 ildir ki, redaktorluq edir. Bu dövrdə qəzetin zamanın, mənsub olduğu bölgənin güzgüsü funksiyasını yerinə yetirməsi üçün o, bütün imkanlarından istifadə edib; qəzetin ətrafına gənc müxbirlərin cəlbini diqqət mərkəzində saxlayıb, onlara məsləhətlərini əsirgəməyib. Mətbuatın imkanlarından istifadə edərək yaşadığımız dövrün salnaməsini qəzet səhifələrində yaratmaq üçün ciddi səylə çalışıb. Rastlaşdığı neqativ halların aradan qaldırılması üçün qəzetdə tənqidi materialların dərc olunmasından çəkinməyib. Bu gün tam cəsarətlə demək olar ki, "Şərurun səsi" qəzeti nümunə gücündədir.

Ömrünün düz 50 ilini jurnalistikaya həsr edən, 1992-ci ilin sentyabrından bu günə qədər rayon qəzetinin redaktoru kimi fəaliyyət göstərən Elman keçdiyi sənət yolu haqqında belə deyir:

– Jurnalistlər gərgin və narahat ömür yaşayan peşə sahibləridir. Çünki jurnalist hər hansı bir qəzet materialını hazırlamağa başlayandan yazıb qurtarana qədər həmişə təkcə seçdiyi "obyekti" deyil, bütöv oxucu kütləsini düşünür, özünü bu yazıya, təbii ki, müxtəlif nöqteyi-nəzərdən yanaşacaq oxucuların yerinə qoyur, xəyalən onlarla "söhbət edir", ən çox isə nöqsanları ürəyinə salır. Sonra qaralmış vərəqləri əzib bir kənara atır, yenidən işləyir, çalışır ki, yazısı jurnalistikanın və oxucunun tələblərinə cavab verə bilsin... Beləcə, ömrünü saatbasaat, günbəgün əridir bu ağ vərəqlər üzərində jurnalist. Nikbinliyini də gizlətmir, bilir ki, qələmə aldığı yaxşı yazılar cəmiyyət üçün həmişəyaşardır və yaşadıqca müəllifini də yaşadacaqdır...

Elman Məmmədov bu illərdə özünə, öz peşəsinə, öz qələminə və vəzifəsinə sadiq qalıb. Heç bir çətinlikdən qorxmayıb.

İş otağında səliqə ilə yığdığı müxtəlif qəzetlər bir jurnalist ömrünün səhifələrini ortaya qoyur. Bu səhifələri vərəqlədikcə Elman Məmmədovun qələminin gücünü bir daha görürsən. Jurnalist etikası, mətbu sözə hörmət, oxucu marağını ödəmək üçün həyati faktlarla dolu bu yazılar sadə təhkiyə üslubu, səmimi ünsiyyət, qəlbinin səsi ilə qələmə alınıb. Bir məqamı xüsusilə vurğulamaq istəyirəm. Ötən əsrin səksəninci illərinin sonlarında baş verən məlum hadisələr Elman Məmmədovu həm xarakter kimi dostlarına yenidən tanıtdı, həm də onun publisistikasına yeni mövzular daxil etdi. Zamanın dillə etdiyi hadisələr elə gözlənilməzliklərlə dolu idi ki, kimsə yolundan sarpdığını dərk edə bilmirdi. Bundan istifadə edənlər isə az qala o dövrün "qəhrəmanlarına" çevrilməkdə idilər. Məhz belə məqamda Elman Məmmədov xarakteri və qələmi Şərur rayonunda öz sözünü deməkdən çəkinmədi. Fiziki və mənəvi zərbələr alsa da, yolundan dönmədi, əyilmədi, sınmadı. Çünki Cəfər Məmmədov, Nəriman Nəcəfov, Rafiq Həsənov, Hüseyn Əbdülhüseynov kimi redaktorlarla işləmişdi, onların mətbuatdakı prinsipial mövqelərini, bu mövqedən çıxış edənlərin insanların qarşısına üzüağ çıxmalarını görmüşdü. Bu gün o dövrə xəyalən ekskurs edən Elman Məmmədov keçib gəldiyi yolda düz mövqe tutduğu üçün özündə daxili – mənəvi rahatlıq tapır, əlinə qələm alan gənclərə də bunu tövsiyə edir.

...Hərdənbir universitetdə oxuduğu illərə qayıdır Elman Məmmədov. O illərdə tanınmış, hər biri jurnalistikada bir məktəb yaratmış müəllimlərdən dərs alıb. Nurəddin Babayev, Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov, Əliş Nəbili, Əli Fəhmi, Famil Mehdi, Qulu Xəlilov, Nəsir İmanquliyev kimi müəllimlər ona jurnalistikanın sirlərini öyrədiblər. Bu gün də onları minnətdarlıqla xatırlayan Elman söhbətlərinin birində müəllimi, filologiya elmləri doktoru, professor Nurəddin Babayevin tövsiyəsini yada saldı:

– Universiteti qurtaranda müəllimlərlə görüş keçirilirdi. Həmin görüşdə çıxış edən Nurəddin müəllim bizə dedi ki, oxuduğunuz müddətdə sizə yazdığımız qiymətlərlə razılaşmayanlarınız ola bilər. Siz çalışın ki, həyatda öz qiymətinizi alasınız.

Bu gün tam cəsarətlə demək olar ki, Elman Məmmədov həyatda öz qiymətini almış qələm sahiblərindəndir. Necə deyərlər, ömrünü yelə verməyib. Dəfələrlə müxtəlif istiqamətli jurnalist yazıları müsabiqələrinin qalibi olub, fəxri fərmanlara layiq görülüb, qiymətli hədiyyələrlə mükafatlandırılıb, "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi", "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adlarını şərəflə daşıyır. Bunun üçün dövlətimizə minnətdarlıq etməyi özünün borcu sayır.

Həmkarım Elman Məmmədov qələmlə yol gəldiyi 50 ilə dönüb baxanda təəccüblənmir. Çünki bu dövrdə o, öz qələminə həmişə sadiq olub. Qələmi də onun sözündən çıxmayıb. Ağı ağ yazıb, qaranı qara. Sovet dönəmində başı ağrılar çəksə də, inamından, əqidəsindən dönməyib, tutduğu yoldan qalmayıb öz qələmi ilə birgə. Fədakar jurnalist həmkarımızı bir daha təbrik edir, çalışdığı vəzifədə, həyatda yeni-yeni uğurlar arzulayırıq.

**Muxtar MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 26 noyabr 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 faiz güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri, H.Rəhimov küçəsi, döngə 5 ünvanında yerləşən 9c nömrəli, 1 mərtəbəli, 3 otaqlı, 77,8 kvadratmetr yaşayış, 111,48 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, H.Rəhimov küçəsi | 60000 | - | 3000 |
| 2. | Culfa şəhəri, H.Əliyev prospektində 26 nömrəli binanın 1-ci mərtəbəsində 14,56 kvadratmetr ümumi, 14,56 kvadratmetr əsas sahədən ibarət qeyri-yaşayış sahəsi (mağaza) | Culfa şəhəri, H.Əliyev prospekti | 35000 | - | 1750 |
| 3. | 399 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 7 otaqlı, 148,84 kvadratmetr yaşayış, 85,24 kvadratmetr köməkçi sahədən ibarət 23 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, B.Abbasov küçəsi | 56000 | 47600 | 2800 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 23 noyabr 2018-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki № AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 26 noyabr 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcəkdir.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Birincilikdə 16 komanda mübarizə aparıb

***Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında yüngül atletika birinciliyi keçirilib. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 16 komanda mübarizə aparıb.***



Hərbi qulluqçuların sürət, çeviklik və dözümlülüyünü yoxlamaq, güclü idmançı və komandaları müəyyən etmək məqsədilə keçirilən birincilikdə 220 idmançı yarışıb. Atletlər Naxçıvan Ordu İdman Klubunun idman şəhərciyində 100, 1000 və 3000 metr məsafəyə qaçış, 400 metr məsafəyə estafet qaçışı, hündürlüyə və uzunluğa tullanma yarışlarında güclərini sınayıblar.

Yekun nəticəyə əsasən yarışların qalibi Heydər Əliyev adına Hərbi Liseyin kursantları olub. Komanda hesabında ikinci yerdə xüsusi təyinatlılar, üçüncü yerdə isə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının atletləri qərarlaşıblar.

İlk üçlükdə qərarlaşan hərbi qulluqçu və komandalar Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən diplom və fəxri fərmanla təltif ediliblər.

**Nəriman NƏCƏFOV**

## Peyntbol üzrə birinciliyə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, eyni zamanda Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib.

Atıcılıq Mərkəzində keçirilən yarışda tərkibi 6 nəfərdən ibarət olmaqla, 7 komanda mübarizə aparıb.

Birinciliyin nəticələrinə əsasən hədəfləri daha sərrast vuran Naxçıvan Dövlət Universitetinin komandası qalib adını qazanıb. Naxçıvan Dövlət Texniki Kollecinin komandası ikinci, Musiqi Kollecinin komandası isə üçüncü olub.

Sonda qaliblər Gənclər və İdman Nazirliyinin diplom və kubokları ilə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Əliyev Nemət Bəhman oğlunun adına olan zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 787